KREDO
№25 (1105) 24 iyun 2022-ci il



# HƏZİ ASLANOVUN EV-MUZEYİNDƏN...



İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiyası general-mayoru Həzi Aslanovun şəxsiyyətinə, sərkərdəlik istedadına və qəhrəmanlığına uşaqlıqdan böyük sevgim olub. Həmişə Həzi Aslanov haqqında yazılan kitabları oxumağa çalışmışam, onun həyatını və döyüş yolunu dərindən öyrəməyə böyük həvəsim olub.

Böyük qəhrəmanın ev muzeyini ziyarət etmək çoxdankı arzum idi. Ümumiyyətlə, Azərbaycanın hər bir mədəniyyət ocağı mənim üçün müqəddəs olub. Onları ziyarət etmək və o, ocaqların mənə bağışladığı xoş təəssüratlar həmişə məni valeh edib.

Bakıda bir sıra mədəniyyət ocaqlarını, xalq şairi Səməd Vurğunun, Hüseyn Cavidin və digər tarixi şəxsiyyətlərin ev-muzeylərini dəfələrlə ziyarət etmişəm. Mən mətbuatda H.Aslanov haqqında dəfələrlə yazmışam. İndi də yeni dərc olunan yazılarımla H.Aslanovun görüşünə gedirdim. Onun haqqında yazdığım "Sərkərdə yolu" məqaləm və qələmə aldığım "Eşqin ürəyimizdə, Azərbaycan oğlusan" şeirim çap olunmuşdu.

Maşın yolu qət getdikcə həyacanım daha da artırdı. İstədiyim yerə nə vaxt çatacağımı düşünürdüm, daha yol boyu ətrafı seyr etməyi belə unutmuşdum. Bunları sözlə ifadə etmək çox çətindir. Amma biz Lənkərana axşam çata bildik, onda da mədəniyyət ocaqlarının iş vaxtı bitmiş olur...

12 may 2022-ci il tarixində Həzi Aslanovun ev muzeyinə yolandım. Sevincimin həddi-hüdudu yox idi. Eyni zamanda çox həyacan keçirdirdim. Adı, sanı, şöhrəti, qəhrəmanlığı bütün SSRİ -yə yayılan bir sərkərdənin doğulub boya-başa çatdığı ocağı ziyarət etmək, həm də mənim üçün bir imtahan idi. Yol boyu gözümün önündə haqqında oxuduğum kitablardan onun qəhrəmanlığı canlanırdı. O qəhrəmanlıq Azərbaycan tarixində özünəməxsus bir səhifədir. Hələ zaman -zaman xalqımız ondan fəxarətlə danışacaq. Bu da sonuncu döngə... Artıq Həzi Aslanovun ev-muzeyinin qapısına çatmışam. Kiçik qapı açıqdır. Böyük bir sevinclə bu kiçik qapıdan içəri ayaq qoyub, sonra ətrafa diqqətlə baxıram. Muzeyin həyətində Azərbaycanın üçrəngli bayrağı əzəmətlə dalğalanır. Sərkərdənin büstü, bir də hələ səkkiz yaşında əkdiyi innab ağacı. Sərkərdənin büstünə diqqətlə baxdıqdan sonra, yaşı yüz ildən artıq olan ağacı seyr edirəm. Qəhrəman innab ağacı bu həyətə əkdiyi gündən hər şeyə şahiddir. Kimləri görməyib? Ən hörmətli qonaqlardan tutmuş ən sadə qonağa kimi, tanış və yad simalar. Deyirlər ağacın da yaddaşı var...

Sonra muzeyə qalxan pillələrə sarı üz tuturam, pillələri yavaş -yavaş qalxdıqca, yenə xəyalımdan nələr keçir. Bunları sözlə ifadə etmək çox çətinir. Azərbaycan xalqının fəxri, əfsanəvi sərkərdə Həzi Aslanovun ocağı müqəddəs bir məbəddir. Bu məbəd şərəfli tariximizin bir hissəsidir.

Ayaqqabılarımı muzeyə qalxan pillədə çıxardıb, açıq eyvana sevinə -sevinə böyük ehtiramla ayaq qoyuram. Ayaq səsimdən sol qapı açılır. Gözəl bir xanım məni salamlayır, özünü təqdim edir: Vəfa Babayeva. Sonra məni içəri dəvət edir. Xanıma baxdıqca unudulmaz şairimiz Səməd Vurğunun misraları yadıma düşür. "Lənkəranın gülü rəng-rəng, Yurdumuzun qızlarıtək". Doğrudan da, yurdumun dəyərli qızı, elqızım, Lənkəranın gülünə, çiçəyinə bənzəyir. Bu da təbiətin və torpağın möcüzəsidir ki, insanın xarakterinə xoş təsir göstərir.

Muzeyə daxil olub birinci otaqda qəhrəmanın anası Nuşu xanıma və həyat yoldaşı Xavər xanıma məxsus əşiyaları görürəm, əlbəttə, hər bir əşiyanın da öz gözəliyi var. Burada stolda əyləşən digər muzey əməkdaşları Vəfa xanım kimi üzlərində xoş təbəssümlə məni olduqca heyran edirlər.

Sonra ikinci otağa daxil oluram. Sol tərəfdə əfsanəvi sərkərdə Həzi Aslanova həsr olunmuş kitablar diqqətimi cəlb edir. Həzi Aslanovun yorulmaz tədqiqatçısı, onun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adını almasında böyük fədakarlıq göstərmiş jurnalist, professor Musa Bağırovun "Sərkərdənin taleyi", Hüseyn Abbaszadənin "General" romanı və digər kitablar. Əlbəttə, bu kitabların hamısını oxumuşam. Bir az sağ tərəfdə qəhrəmanın əzəmətli büstü və muzeydəki şəkillər diqqətimi özünə cəlb edir. Vəfa xanım böyük səmimiyyətlə muzey haqqında mənə məlumat verir. Həzi Aslanov haqqında böyük həvəslə danışır. Özüm də böyük sərkərdə haqqında oxuduqlarımı danışıram, sonra üçüncü otağa daxil oluruq. Burada da eyni ilə ikinci otaqdakı kimi Həzi Aslanovun divardakı şəkilləri, yerdə tankın boş mərmiləri, səkkiz mərmi... Vəfa xanım mənə məlumatlar verir. Hər mərmini bir şəhərin azad olunmasına görə muzeyə hədiyyə ediblər. Mərmilər üstündə həmən şəhərlərin adları yazılıb. Həzi Aslanovun həmin şəhərlər uğurunda qəhrəmancasına vuruşduğu Stalinqrad və digər şəhərlər.

Həzi Aslanov ilk dəfə Sovet İttifaqı Qəhrəmanı adını da 22 dekabr 1942-ci ildə Stalinqrad uğrunda böyük qəhrəmanlıq göstərdiyinə görə alıb.

Sonra dördüncü otağa daxil oluruq, burada da əfsanəvi sərkərdənin paltarları, xalça üstündəki şəkil, böyük çərçivədə rəssamın çəkdiyi şəkil və digər şəkillər, kitablar var. Beləcə qəhrəmanın ev muzeyinə ziyarətim xoş təəssüratla davam edir. Vəfa xanım yenə də mənə məlumatlar verir. Sonra muzeyin xatirə kitabına ürək sözləri yazmağımı istəyir. Xatirə kitabını açır, xatirə kitabın dolduğunu görüb yenisini gətirir. Mən isə əvvəlkinə diqqətlə nəzər yetirirəm, orda bir-birindən dəyərli ürək sözləri yazan qonaqların fikirlərini oxuyub nə yazacağımı düşünürəm. Əlbəttə, qəhrəmana həsr etdiyim şeirimin son bəndi ilə ürək sözümü yazmağa böyük sevinc hissi ilə başlayıram.

*Həzi deyib, hər zaman qürurlanır bu vətən,*
*Keçmisən döyüşlərin payızından, qışından.*

*Xalqımın sərkərdəsi, adın düşməz dillərdən,*
*Məzarına baş əyib, öpürəm başdaşından.*

*Gələn nəsillər üçün qəhrəmanlıq yolusan,*
*Eşqin ürəyimizdə Azərbaycan oğlusan.*

Beləliklə muzeyin xatirə kitabına öz ürək sözlərimi yazıb bitirirəm. Ürək sözlərimi, "Həzi Aslanov yolu vətənpərvəlik, xalqa, dövlətə və dövlətçiliyə sədaqət yoludur. Bu yol hər birimiz üçün müqəddəsdir" yazıb fikirimi yekünlaşdırıram. Həm muzeyin xoş təəssüratı, həm də muzeyin əməkdaşı Vəfa xanımın yüksək səmimiyyəti məni olduqca valeh edir. Onu da bildirim ki, muzeyə baxışım üç saat davam etdi, amma bir az belə yorulmadım. Çünki bu müqəddəs ocaqda yorulmaq nədir belə yadıma düşmürdü.

Həzi Aslanovun adını daşıyan bu müqəddəs ocaq, məbəd olduqca zəngin bir ocaqdır. Burda hər şey var. Söz də, peziya da, ədəbiyyat da, mədəniyyət də, qürur da, qeyrət də, hünər də, Zəfərbdə buradadır. Belə müqəddəs məbədlərin gələcək nəsillərin vətənpərvərlik ruhunda böyüməsində. təbii ki, böyük rolu var. Mədəniyyət ocaqlarına tez-tez baş çəkmək, hər birimiz üçün vacibdir. Əlbəttə, əfsanəvi sərkərdə Həzi Aslanovun ev muzeyi haqqındakı təəssüratlarımı nə qədər yazsam, yenə sözüm, fikrim bitməz. Bura Azərbaycan xalqı üçün müqəddəs bir məbəddir. Xalqın ürəyi, ruhu, qüruru burdadır. Təəssüratlarımı tam yaza bilməmişəm.

Bir şair olaraq mənimçün Lənkəran əfsanəvi sərkərdə Həzi Aslanovun ev muzeyindən başlayır. Söz verirəm, hər dəfə Lənkərana gedəndə birinci olaraq şəxsiyyətinə, qəhrəmanlığına, sərkərdəlik məharətinə dünyalar qədər sevgim olan iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiyası general-mayoru Həzi Aslanovun ev muzeyinə ziyarət edərəm. Çünki o, mənimçün böyük bir dünya, bənzərsiz qəhrəmandır...

**14 iyun, 2022-ci il**

***İltimas SƏMİMİ,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü,***
***Prezindent mükafatçısı***

**"REDAKSİYA HEYƏTİ**

**Əli Rza Xələfli -** ***baş redaktor***
***(www.eli-rza-xelefli.net)***

**Asif Rüstəmli**
**Ağarəhim Rəhimov**
**Baba Babayev**
**Bədirxan Başkeçidli**
**Cahid İsmayıloğlu**
**Elçin Kamal**
**Elçin Tanrıdağ (İsgəndərzadə)**
**Firuz Mustafa**
**Hafiz Rüstəm**
**Hüseynbala Mirələmov**
**İsa Həbibbəyli**
**Gülşən Əliyeva - Kəngərli**
**Gülxani Pənah**
**Qəzənfər Kazımov**
**Qəzənfər Paşayev**
**Qurban Bayramov**
**Mahmud Allahmanlı**
**Nizaməddin Şəmsizadə**
**Nizami Cəfərov**
**Nizami Məmmədov**
**Paşa Qəlbinur**
**Salatın Əhmədli**
**Sevindik Nəsiboğlu**
**Şəddat Cəfərov**
**Tahirə Həsənzadə**
**Təyyar Salamoğlu**
**Vaqif Yusifli**
**Xanəli Kərimli**
**Yusif Nəğməkar**